“2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrasını həyata keçirmək üçün elektron tədris resurslarının beynəlxalq standartlara əsaslanaraq qiymətləndirilməsi, həmin resursların təhsil portalına yerləşdirilməsi və onların daha effektiv formada tətbiqi üçün zəruri olan metodiki materialların və tövsiyələrin təsdiq edilməsi ilə əlaqədar

**ƏMR EDİRƏM**

1. **Təhsil Sistemində Elektron Tədris Resurslarının Qiymətləndirilməsi Şurası** yaradılsın, şuranın sədri və tərkibi təsdiq edilsin (**Əlavə 1**).

2. **Şuranın Əsasnaməsi** təsdiq edilsin (Əlavə 2).

3. **Elektron tədris resurslarının ekspertizası və onlara Təhsil Nazirliyinin qrifinin verilməsi Qaydaları** təsdiq edilsin. Təsdiq edilmiş Qaydaları qeydiyyata almaq məqsədi ilə Ədliyyə Nazirliyinə təqdim olunsun. (Əlavə 3).

4. Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə tapşırılsın ki, Elektron Tədris Resurslarının

5. Qiymətləndirilməsi Şurası tərəfindən qəbul olunmuş resurslar Təhsil Nazirinin müvafiq əmri ilə Təhsil Portalında yerləşdirilsin və təhsil müəssisələrinə yayılsın.

Qiymətləndirilməyə verilmiş elektron resursların məzmununun ekspertizasının aparılması üçün, “Dərsliklərin Qiymətləndirmə Şurası”nın ekspert komissiyasına təqdim edilsin və milli kurikuluma uyğunluğu müəyyənləşdirsin.

6. İctimaiyyətlə Əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin “Azərbaycan müəllimi” qəzetində, nazirliyin “Təhsil xəbərləri” məcmuəsində və Təhsil Nazirliyinin rəsmi İnternet saytında dərc olunmasını təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: Azərbaycan Respublikasının Təhsil Nazirinə təqdim olunmuş 219 nömrəli, 19 noyabr 2009- cu il tarixli təqdimat.

***Misir Mərdanov***

***Təhsil naziri***

***21.12.2009-cu il***

***№ 1421***